# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

## Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası üçün test imtahanında və müsahibədə iştirak edənlərin

## Y A D D A Ş K İ T A B Ç A S I

### Hörmətli tibb işçisi!

Məqsədimiz biliklərinizi nümayiş etdirmək üçün Sizə eyni şərait yaratmaq, imtahanda və müsahibədə şəffaflığı və obyektivliyi təmin etməkdir.

İmtahanın və müsahibənin nəticələrini **www.health.gov.az** səhifəsindən və **"Tibb qəzeti"**ndən öyrənə bilərsiniz!

### 1. İMTAHANDA İŞTIRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL OLUNMALIDIR

**1.1.** İmtahanın keçiriləcəyi ünvan, tarix, saat, auditoriyanın nömrəsi, eyniləşdirmə kodu "Buraxılış vərəqəsi"ndə göstərilir.

**QEYD:** **"Buraxılış vərəqəsi" üzərində digər qeydlərin aparılması qəti qadağandır**.

**1.2.** İmtahan başlanmazdan 1 saat əvvəl imtahanın keçiriləcəyi ünvanda olmanız vacibdir.

**1.3**. İmtahana aşağıdakı sənədlərin gətirilməsi zəruridir:

- ✓ **Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi)**
- ✓ **"Buraxılış vərəqəsi"**

**QEYD:** **Göstərilən 2 sənəddən biri olmadıqda imtahana buraxılmayacaqsınız!**

**1.4.** İmtahan başlandıqdan sonra gələn şəxs imtahana buraxılmır.

YADDAŞ KİTABÇASI

## 2. TEST İMTAHANININ VERİLMƏ QAYDASI

**2.1.** Sizə 100 test sualı təqdim olunur və onlara cavab vermək üçün 3 saat vaxt ayrılır.

**2.2.** İmtahan zamanı fasilə verilmir.

**2.3.** İmtahan başlamazdan əvvəl nəzarətçi tərəfindən imtahanın verilmə qaydası izah olunur.

**2.4.** Test imtahanının verilmə qaydası izah olunduqdan sonra sual kitabçası və cavab kartları paylanılır və bu andan test imtahanının başlanma vaxtı hesablanır.

**2.5.** Verilən hər bir sualın 5 cavab variantı var: (A, B,C, D, E).

**2.5.1.** 5 cavab variantından yalnız biri düzdür.
**2.5.2.** Cavab kartında düzgün hesab etdiyiniz cavab variantını qara və ya tünd göy rənglə yazan diyircəkli qələmlə qaralayın.




**2.6**. Seçdiyiniz cavabın yerləşdiyi hərfli dairəni pozmaq, boş saxlamaq və ya bir neçəsini doldurmaq olmaz! Belə halda verilən cavab 0 balla qiymətləndirilir.




**2.7**. Səhv cavablar  balların hesablanmasına təsir etmir.

**2.8**. 3 saat bitdikdən sonra imtahan bitmiş hesab olunur.

**2.9.** İmtahan bitdikdən sonra cavab kartını və sual kitabçasını nəzarətçiyə qaytarın, imtahanın başa çatması barədə protokolu imzalayın.

**Nəticələr aşağıdakı qaydada hesablanır:**
İmtahanda hər bir sualın düzgün cavabı "1" balla qiymətləndirilir (cəmi 100 mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması 0 bala bərabər tutulur.
Test imtahanının yekunlarına görə **60 və daha artıq** bal toplamış şəxslər müsahibəyə buraxılır. Test imtahanının nəticələri imtahan keçirilən tarixdən 3 gün müddətində bəyan edilir.

YADDAŞ KİTABÇASI

## 3. TEST İMTAHANI ZAMANI QADAĞANDIR:

**3.1**. İmtahan auditoriyasına cib telefonu, kalkulyator, kitab, dəftər, jurnal, məlumat kitabçası, lüğət, cədvəl və çanta gətirmək, yaxud köməkçi vasitələrdən istifadə etmək.

**3.2**. Hər hansı bir səbəbə görə imtahan auditoriyasını tərk edib yenidən geri dönmək.

**3.3.** Nizam-intizam qaydalarını pozmaq.

**QEYD:** **Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası qaydalarına və bu "Yaddaş kitabçası"nda göstərilən tələblərə əməl etməyən şəxsin imtahan nəticələri ləğv olunacaqdır.**

## 4. MÜSAHİBƏ

**4.1.** Test imtahanını müvəffəqiyyətlə verən şəxslər İxtisas Komissiyası ilə müsahibəyə müvafiq qaydada dəvət olunur.
**4.1.1.** 7 gün əvvəl müsahibə barədə xəbərdarlıq edilir və müsahibənin keçirildiyi yer, tarix və vaxt haqqında məlumat verilir.

**4.2**. Müsahibəyə şəxsiyyət vəsiqəsinin gətirilməsi mütləqdir.

**4.3**. Müsahibə zamanı şəxsin ixtisasına aid, habelə praktiki bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən suallar verilir.

**4.4**. Müsahibə fərdi qaydada İxtisas Komissiyasının üzvləri ilə söhbət formasında 30 dəqiqəyədək aparılır.

**4.5**. Cavablar məqbul qiymətləndirdiyi halda müsahibə müvəffəqiyyətlə keçmiş hesab olunur.

**QEYD:** **Sertifikasiyadan müvəffəqiyyətlə keçdiyi halda sertifikasiya şəhadətnaməsi verilir və 5 il müddətində ixtisas üzrə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edilir.**

Sertifikasiyadan keçməyən şəxslər 6 ay müddətində iş yerləri saxlanılmaqla, müvafiq peşə hazırlığını keçərək, sertifikasiya olunmaq üçün müraciət edə bilərlər.

www.sehiyye.gov.az

www.health.gov.az

YADDAŞ KİTABÇASI